# “Çanaqqala 100: Qardaş köməyi” sənədli filmin təqdimatı keçirildi

Bütün türk dünyasının tarixinə böyük qəhrəmanlıq salnaməsi kimi daxil olmuş Çanaqqala zəfərindən 100 il keçir. Bu münasibətlə Azərbaycanda da Türkiyənin şanlı günü ilə bağlı müxtəlif tədbirlər keçirilir, fotosərgilər təşkil olunur. Belə tədbirlərdən biri də aprelin 23-də Azərbaycan Dillər Universitetində ASAN Xidmətin sifarişi ilə hazırlanmış, “Çanaqqala 100: Qardaş köməyi” sənədli filmin təqdimatı ilə yadda qaldı. Təqdimolunma mərasiminə filmin yaradıcı heyətinin üzvləri ilə yanaşı Milli Məclisin deputatları, Azərbaycan Dillər Universitetinin professor-müəllim heyəti,tələbə kollektivi, tarixçi-alimlər, ziyalılar, gənclər təşkilatlarının nümayəndələri qatılmışdılar.






Bildirildi ki, “Çanaqqala 100: Qardaş köməyi” sənədli filminin direktoru Azərbaycan Yazıçılar Birliyinin üzvü Cəlal Qurbanov, müəllifi isə tanınmış jurnalist Aynur Talıbovadır.

Məlumat verildi ki, I Dünya müharibəsi zamanı İngiltərə və Fransa müttəfiqləri olan Rusiyaya yardım edə bilmək üçün boğazlar vasitəsilə İstanbulu ələ keçirib Osmanlı dövlətini müharibədən çıxarmaq məqsədilə Çanaqqala cəbhəsini açırlar. Türkiyənin şimal-qərbində yerləşən Çanaqqala vilayəti Dardanel boğazı ilə Avropa və Asiya qitələrini bir-birindən ayırır. O vaxt müttəfiqlər 400-dən çox gəmini bir araya gətirməklə dünyanın ən böyük donanmasını qurur və 18 mart 1915-ci ildə zirehli gəmilərlə Çanaqqala boğazına daxil olurlar. Dəniz müharibəsində boğazı keçə bilməyəcəyini anlayan müttəfiqlər boğazın 5 yerinə əsgərlərini çıxararaq quru müharibəsinə başlayırlar. Türk xalqının qanlı və şanlı səhifələrindən biri olan, 1915-ci ilin fevral ayında Çelibolu yarımadasından başlayaraq 1916-cı ilədək davam edən quru və dəniz döyüşləri tarixə Çanaqqala savaşı kimi düşüb və türkün zəfər tarixi kimi yaddaşlara həkk olunub. Arxiv sənədlərinə əsaslanaraq belə fikir yürüdülür ki, həmin savaşda Bakı, Gəncə, Naxçıvan, Təbriz, Dərbənd və digər bölgələrdən təxminən 3000 könüllü Çanaqqala savaşında vuruşublar. Çanaqqaladakı məzarlar azərbaycanlıların bu savaşda iştirakını bir daha təsdiq edir. Bu fakt azərbaycanlıların türk xalqına qardaş köməyinin bariz nümunələrindən biridir. Məhz filmin ana xəttini də elə bu fikir tamamlayır.

Tədbirdə Milli Məclisin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin sədri, millət vəkili, Əli Hüseynli, ASAN Könüllüləri Gənclər Təşkilatının sədri Fərid Sadıxlı, Bakı Şəhər Gənclər və İdman Baş idarəsinin rəisi Raqif Abbasov “Çanaqqala 100: Qardaş köməyi” sənədli filmi ilə bağlı öz fikirlərini bölüşdülər. Belə bir layihənin gerçəkləşdirilməsinin vacibliyini vurğulayaraq filmin yaradıcı kollektivinə, o cümlədən böyük zəhmətləri və əməyi olan Cəlal Qurbanova və Aynur Talıbovaya minnətdarlıqlarını bildirib, yeni yaradıcılıq uğurları arzuladılar.

Sonra respublikanın əməkdar artisti Sevda Ələkbərzadənin ifasında Türkiyədə çox məşhur olan və Çanaqqala müharibəsində döyüşən bir əsgərin qələmindən çıxan “Çanaqqala türküsü” səsləndi.

Tədbir “Çanaqqala 100: Qardaş köməyi” sənədli filminin nümayişi ilə davam etdi. 43 dəqiqə davam edən filmdə Çanaqqala savaşını əks etdirən döyüş səhnələri, həmçinin insanları qələbəyə, zəfərə səsləyən musiqi sədaları tədbir iştirakçılarının xatirində dərin iz buraxdı.




Həmçinin “Çanaqqala 100: Qardaş köməyi” sənədli filmində o dövrü araşdıran Azərbaycanın (Musa Qasımlı - Milli Məclisin deputatı, Nizami Cəfərov - Azərbaycan Atatürk Mərkəzinin müdiri, millət vəkili, Akif Aşırlı - “Şərq” qəzetinin baş redaktoru, araşdırmaçı-jurnalist) və Türkiyənin (Qiyas Şükürov - dosent, Bozok Universitetinin müəllimi, Mustafa Budak - dosent, Dövlət Arxivinin müdiri) və başqa araşdırmaçı-jurnalist və tarixçilərin xalqlarımız arasındakı dostluğu və qardaşlığı sərgiləyən real tarixi hadisələr barədə fikirləri öz əksini tapmışdır.

Sonda göstərilir ki, bu film Çanaqqala savaşlarında şəhid olmuş qəhrəman türk əsgəri və azərbaycanlı könüllülərin əziz xatirəsinə ithaf edilir.

**Ramiz YUSİFLİ,**
**“Respublika”.**